BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2015*

UOT 94(479.24)

# İRƏVAN BƏYLƏRBƏYİ TƏHMASİBQULU XAN QACAR

**B.Ş.ŞABİYEV**
***Bakı Dövlət Universiteti***
***beymirze.shabiyev@mail.ru***

*Məqalədə XVII əsrin 20-30-cu illərində Çuxur-Səəd bəylərbəyi olmuş Təhmasibqulu xan Qacarın bölgədəki fəaliyyətinin müxtəlif aspektləri dövrün ilkin qaynaqlarının materialları əsasında araşdırılmış, bir sıra faktiki materiallar demək olar ki, ilk dəfə olaraq elmi dövriyyəyə cəlb edilmişdir.*

**Açar sözlər:** İrəvan, Çuxur-Səəd, Qacar

Azərbaycan Səfəvilər dövlətinin mühüm inzibati ərazi vahidlərindən biri olan Çuxur-Səəd bəylərbəyliyinin tarixinin müəyyən dövrü Qacar tayfaları ilə bağlıdır. XVI əsrdə Çuxur-Səəd bəylərbəyləri əsasən Rumlu və Ustaclı tayfalarının əmirlərindən təyin edilirdisə, XVII əsrdə bu vəzifəni daha çox Qacar tayfasının təmsilçiləri tutmuşdular.

Məlum olduğu kimi, 1580-1604-cü illərdə İrəvan vilayəti Osmanlı işğalı altında olmuş, 1604-cü ildə isə Şah I Abbas İrəvanı işğaldan azad etdikdən sonra Əmirgünə xan Qacarı Çuxur-Səəd bəylərbəyi təyin etmişdi.(1,638). Əmirgünə xan 20 ildən artıq bu vəzifəni şərəflə yerinə yetirmiş və 1625-ci ildə Gürcüstanda baş vermiş üsyanın yatırılması zamanı ağır yaralanaraq, elə həmin ildə vəfat etmişdi. Onun ölümündən sonra Şah I Abbasın fərmanı ilə oğlu Təhmasibqulu xan İrəvan bəylərbəyi təyin edilmişdi (1, 1031; 2, 84-85). Təhmasibqulu xan 1625-1635-ci illərdə Çuxur-Səəd bəylərbəyliyini idarə etmişdir. Lakin Təhmasibqulu xanın Səfəvilər dövləti tarixində siyasi fəaliyyəti bu hadisədən daha öncə başlanmışdı.

1612-ci ildə Osmanlı dövləti ilə müharibəni uğurla başa çatdırıb, 1590-cı il İstanbul barışığına əsasən itirilmiş əraziləri geriyə qaytaran Şah I Abbas 1613-1616-cı illərdə Şirvan və Gürcüstanda Səfəvilərə qarşı baş vermiş üsyanların yatırılması ilə məşğul oldu (3, 119). Bu yürüşdə Təbriz bəylərbəyi Pirbudaq xan, Qarabağ əmirlərindən Dəli Məhəmməd Şəmsəddinli və Şirvan bəylərbəyi Yusif xan da Şah I Abbası müşayət edirdi.(4,80). Təbrizli Arakelin

məlumatına görə, Şah I Abbas Gürcüstanda olarkən Əmirgünə xan Qacarı da üsyançılarla savaşda iştirak etmək üçün yanına çağırmışdı. Çuxur-Səəd bəylərbəyliyi Osmanlı ilə sərhəddə yerləşdiyinə görə şah bu vilayəti sahibsiz qoymamaq üçün Əmirğünə xanın oğlu Təhmasibqulu bəyi canişin kimi İrəvana göndərmiş və bölgənin qorunmasını ona tapşırmışdı (5, 177). Təhmasibqulu bəyin İrəvanda canişinliyi dövrünün bəzi hadisələri haqqında fars dilli qaynaqlarda məlumatlar olmasa da, dövrün erməni mənbələrində bəzi təfərrüatlara rast gəlmək mümkündür. Məlum olduğu kimi, XVII əsrin əvvəllərində Üçkilsə katalikosluğu uğrunda Davidlə Melikset arasında kəskin mübarizə gedirdi. 1605-ci ildə Osmanlı qoşunları əks hücuma keçən zaman Şah I Abbasın əmri ilə İrəvan və Naxçıvan əhalisinin köçürülməsinə başlandı. Köçürülənlərin arasında erməni din xadimləri David və Melikset də var idi. Təbrizli Arakelin yazdığına görə, köçürülənlər Əhər və Meşkinə çatdıqdan sonra Melikset şahın icazəsi olmadan Üçkilsəyə qayıdaraq katalikosluğu idarə etməyə başlamışdı. David isə əmrə itaət edərək İsfahana getmişdi (5, 176-177). Yaranmış vəziyyətdən istifadə edən David Meliksetin özbaşınalığından şaha şikayət edərək təklif etmişdi ki, Üçkilsə monastrının daşlarını və Müqəddəs Qriqori Lusaroviçin qalıqlarını İsfahana gətirmədən erməni əhalisini İsfahanda saxlamaq mümkün olmayacaqdır (5, 172). Buna görə də Şah I Abbas Gürcüstanda olarkən Nağdı bəy vasitəsilə Təhmasibqulu bəyə xüsusi məktub göndərmiş, katalikos Meliksetin həbs olunaraq hüzuruna gündərilməsini, həmçinin Müqəddəs Qriqorinin qalıqlarının tapılıb göndərilməsini tələb etmişdi. Təhmasibqulu bəy əmri yerinə yetirərək Melikseti, İncili, xaçı və Lusaroviçin qalıqlarını Nəcirli Qubad ağanın başçılığı altında bir dəstə hərbiçi ilə şahın düşərgəsinə göndərmişdi (5, 178). Katalikos Meliksetlə münasibətləri yaxşı olan Çuxur-Səəd bəylərbəyi Əmirgünə xan Qacar Melikset şahın hüzuruna gətirilməzdən öncə üç oğlunu şahın yanına göndərərək katalikosun əhv edilməsini xahiş tmişdi. Əmirgünə xanın xidmətlərini nəzərə alan Şah I Abbas Melikseti öldürməkdən vaz keçərək, onu İsfahana göndərmişdi (5, 179). Az sonra Şah I Abbas katalikos Melikseti İrəvana, Təhmasibqulu bəyin yanına qaytararaq göstəriş vermişdi ki, Üçkilsənin müqəddəs daşlarını çıxararaq digər müqəddəs əşyalarla birlikdə İsfahana göndərsin. Şahın əmrini yerinə yetirən Təhmasibqulu bəy əvvəlcə Lusaroviçin qalıqlarını, İncili və xaçı, sonra isə Üçkilsənin müqəddəs daşlarını Nağdı bəyin başçılığı altında isfahana yola salmışdı (5, 181). Bu hadisə 1614-1615-ci illərdə baş vermişdi. Şah I Abbasın erməni katalikosluğunun mərkəzini İrəvandan İsfahana köçürməkdə əsas məqsədi böyük iqtisadi potensiala malik olan erməni katalikosluğunu öz nəzarəti altına almaqdan və İsfahana köçürülmüş erməni əhalisini orada saxlamaqdan ibarət olmuşdur.

1616-cı ildə Şah I Abbas Gürcüstanı tərk edərkən davidi erməni katalikosu təyin etmiş, onu Əmirgünə xana tapşıraraq İrəvana yola salmışdı (5, 183). Lakin David Əmirgünə xanla heç cür münasibətləri yaxşılaşdira bilməyərək, İrəvanı tərk edərək İsfahana qayıtmışdı. Bundan sonra Şah I Abbas Melikseti katalikos vəzifəsinə qaytarsa da, üç cinayətinə görə onun üzərinə 100 tümən

vergi qoymuşdu (5, 185-186). Arakel Təbrizlinin verdiyi məlumatlar göstərir ki, Təhmasibqulu bəy hələ İrəvan bəylərbəyi təyin edilməzdən çox öncə, 1613-1614-cü illərdən etibarən siyasi fəaliyyətə başlamış və Şah I Abbasın xüsusi ehtiramına layiq görülmüşdü. 1616-1624-cü illər arasında Təhmasibqulu bəyin siyasi fəaliyyəti haqqında dövrün mənbələrində heç bir məlumatlara rast gəlinmir. Yalnız 1624-cü il hadisələri ilə bağlı erməni mənbələrində onun adı xatırlanır. Təbrizli Arakelin məlumatına görə, 100 tümən vergini şah xəzinəsinə ödəməkdə çətinlik çəkən Melikset Əmirgünə xanın razılığı ilə öz yerinə Saakın katalikos təyin edilməsinə nail olduqdan sonra İstanbula, oradan Lvova getmişdi (5, 192-193). Salnaməçi yazır ki, Əmirgünə xan Saakın katalikos təyin edilməsi üçün şahın fərmanını almaqdan ötəri onu oğlu Təhmasibqulu xanın yanına göndərmişdi. Təhmasibqulu xan bu zaman şahın xidmətində olub, onun möhrdarı vəzifəsini tuturdu (5, 193). Təhmasibqulu xan tərəfindən Şah I Abbasa təqdim olunan Saak katalikos təyin olunması haqqında fərman almağa müvəffəq ola bilmişdi. Şahın möhrdarı kimi yüksək bir mənsəbə nail olması Təhmasibqulu xanın Səfəvi sarayında böyük nüfuz sahibi olmasından xəbər verirdi.

1624-1625-ci illərdə Gürcüstanda Səfəvi hakimiyyətinə qarşı daha bir üsyan baş vermişdi. Mənbələrin məlumatına əsasən, h. 1033-cü ildə (1623-1624) Kaxetiya hakimi Peykar xan Kaxetiya əyanlarının Kaxet çarı Teymurazla gizli əlaqəyə girərək şah hakimiyyətinə qarşı qiyam hazırlamaları haqqında Səfəvi sarayına xəbərlər çatdırmışdı. Şah I Abbas gürcüləri itaətə gətirmək üçün Səfəvi ordusunun baş komandanı Qarçıqay xanı və bu vaxta qədər 10 il Səfəvi sarayında xidmət etmiş Morav bəyi (Georgi Saakidzeni) Gürcüstana yola salmışdı. Qarçıqay xanın əmri ilə Şirvan bəylərbəyi Yusif xan və Qarabağ bəylərbəyi Məmmədqulu xan Ziyadoğlu Qacar da köməyə gəlmişdilər. Qızılbaşların Kaxetiya əhalisinə divan tutmasından hiddətlənən Morav bəy həmyerlilərinin tərəfinə keçərək Qarçıqay xanı və Yusif xanı qətlə yetirmiş, Səfəvi ordusunu məğlub etmişdi. Şah I Abbasın İsa xan Qorçubaşının başçılığı altında göndərdiyi qızılbaş ordusu 30 iyun 1625-ci ildə Əlkitçay vadisində baş vermış döyüşdə üsyanı yatırsa da, Teymuraz və Saakidze qaçmağa müvəffəq olmuşdular (3, 126-127; 2, 53-55). Gürcüstanda baş vermiş 1624-1625-ci illər üsyanı ilə əlaqədar erməni mənbələrində Təhmasibqulu xanla bağlı ziddiyyətli olsa da bəzi məlumatlar öz əksini tapmışdır. Arakel Təbrizli yazır ki, Əmirgünə xan gürcülərlə savaşda yaralandığına görə Təhmasibqulu xan İrəvana göndərilmişdi (5, 194). Kənəkirli Zəkəriyyə Əmirgünə xanın gürcü Ağa Tanki ilə döyüşünü təsvir edərək yazır ki, Əmirgünə xan yaralansa da gürcü pəhləvanını qətlə yetirdi. Müəllifin məlumatına görə, atası ilə bu savaşda iştirak edən Təhmasibqulu xan Əmirgünə xanın yaralarını bağlayaraq onu İrəvana göndərdi, özü isə Səfəvi ordusunun yanında qaldı (2, 56). Kənəkirli Zəkəriyyə bu hadisədən sonra Təhmasibqulu xan haqqında belə bir əhvalat təsvir edir ki, Əmirgünə xanın yaralanması xəbərini eşidən kürdlər Masis dağının (Ağrı dağı – B.Ş.) o tərəfindən Şərur vadisinə basqın etdilər və

Əmirgünə xan oğlu Təhmasibqulu xanı köməyə çağırdı. Təhmasibqulu xan qorçubaşıdan (İsa xan qorçubaşı nəzərdə tutulur – B.Ş.) izinsiz İrəvana qayıdaraq əvvəlcə kürdləri, sonra isə Qars tərəfdən Karbi nahiyəsinə soxulan Osmanlı qoşunlarını məğlub etdi. Qorçubaşı icazəsiz getdiyi üçün Təhmasibqulu xandan şaha şikayət yazsa da, şah Təhmasibqulu xanın hərəkətini düzgün hesab edərək, onun bu addımını təriflәmişdi (2, 83-84). Kənəkirli Zəkəriyyə özünün təqdim etdiyi bu məlumata şübhə ilə yanaşdığını qeyd edərək yazır ki, Arakelin verdiyi məlumata görə, Əmirgünə xan yaralandığı zaman Təhmasibqulu xan şahın xidmətində idi (2, 85). Müəllif daha sonra yuxarıda yazdığı əhvalatın doğru olduğuna işarə edərək yazır ki, mən uşaq olanda deyirdilər ki, Təhmasib bəy Gürcüstan və kürdlər üzərinə yürüşdən qayıdarkən ələ keçirdiyi əsirləri Kənəkir kəndinə gətirmişdi (2, 85). Dövrün digər mənbələrinin bu barədə məlumatlarının olmadığından Arakel Təbrizli və yaxud da Zəkəriyyə Kənəkirlinin hansının düz yazdığını söyləmək mümkün deyildir. Lakin Əmirgünə xanın gürcülərlə savaşda aldığı yaradan 1625-ci ilin sonunda öldüyü və yerinə Təhmasibqulu xanın Çuxur-Səəd bəylərbəyi təyin edildiyi fars dilli mənbələrdən də bəllidir (1, 1031).

1630-cu ildə Xosrov paşa başda olmaqla Osmanlı ordusunun Bağdada uğursuz yürüşü zamanı Azərbaycan və Çuxur-Səəd bəylərbəyliyi ərazisinin bəzi vilayətləri osmanlı və kürdlərin basqınına məruz qalmışdı. İsgəndər bəy Münşinin məlumatına əsasən, Təhmasibqulu xan bu hadisədən sonra 10000 qoşunla kürdlərin mahmudi tayfasının üzərinə hücum edərək Əhlət və Adilcəvəzə qədər gedib çıxmış, çoxlu əsir və qənimət ələ keçirmişdi (4, 80-81; 6, 70).

XVII əsrin 30-cu illərinin əvvəllərində Şah I Səfinin əmri ilə Təbriz bəylərbəyi Rüstəm xanın rəhbərliyi altında qızılbaş ordusu Vana hücum etmişdi. Zəkəriyyə Kənəkirlinin məlumatına görə, yürüş ərəfəsində Rüstəm xan Təhmasibqulu xandan bu yürüşə qoşulmağı tələb etsə də rədd cavabı almışdı. Təhmasibqulu xan şahın bu barədə əmrinin olmadığını və İrəvanın üç tərəfdən – gürcü, kürd və Osmanlı tərəfdən düşmən əhatəsində olmasını əsas gətirərək vilayəti başsız qoymaq istəmədiyi üçün yürüşdə iştirakdan imtina etmişdi. Rüstəm xanın Van yürüşü uğursuzluqla başa çatdığı üçün onun Təhmasibqulu xanla münasibətləri həmişə düşmənçilik xarakteri daşımışdı (2, 86-87). Bu hadisələri bir qədər fərqli təsvir edən İsgəndər bəy Münşi yazır ki, h. 1043-cü ildə (1633) Diyarbəkir hakimi Murtuza paşa və Ərzurum bəylərbəyi Xəlil paşanın 40 minlik ordusu Vana doğru hərəkət etdiyi vaxt sərhəddəki qızılbaş ordusu 10-15 min nəfərdən çox deyildi. Səfəvi sarayı Çuxur-Səəd bəylərbəyi Təhmasibqulu xana dərhal özünün 3-4 min nəfərə qədər olan ordusu ilə həmlə edərək sərhəddəki əsas hərbi hissələrlə birləşmək göstərişi vermişdi (6, 137-138).

Zəkəriyyə Kənəkirli Təhmasibqulu xanın hakimliyi dövrü ilə bağlı digər mənbələrdə öz əksini tapmayan bəzi maraqlı məlumatları da qeydə almışdır. Müəllifin yazdığına görə hələ Əmirgünə xanın dövründə Osmanlı ərazisindən

qaçıb İrəvana gələn Murad bəy, sonra onun qardaşı Aslan ağa xan sarayında yaxşı qarşılanmış, yüksək mənsəb sahibləri olmuşdular. Əmirgünə xandan sonra hakimiyyətə gələn Təhmasibqulu xan da onlara yaxşı münasibət bəsləmiş, Murad bəyi özündən sonra ikinci şəxs, Aslan ağanı isə bəylərbəyliyin baş vergi məmuru təyin etmişdi (2, 87). Salnaməçi Aslan ağanın Kənəkir kəndində böyük qəddarlıqla əhalini, inəkləri, atları, öküzləri, ulaqları, qoyunları, dəyirmanları, bağları, üzümlükləri, düyü əkilən sahələri, sənətkar emalatxanalarını siyahıya aldığını qeyd etmişdir (2, 87-88). Kənəkirli Zəkəriyyə Təhmasibqulu xanın gözəl xarici görkəmə, böyük gözlərə, nazik qaşlara, enli kürək və alına malik olan ədalətli bir adam olduğunu qeyd edərək, onu xristianları sevən, tez-tez onların evlərinə qonaq gedən şəxsiyyət kimi təqdim etmişdir (2, 90-91).

Çuxur-Səəd bəylərbəyliyi Osmanlı dövləti ilə sərhəddə yerləşdiyindən tərəflər arasında intensiv müharibələrin olmadığı dövrlərdə də sərhəddə ara-sıra toqquşmalar baş verirdi. Kənəkirli Zəkəriyyə yazır ki, Qars şəhərində hakimiyyət uğrunda sağ ağası və sol ağası arasında münaqişə baş veriyi üçün onlar məsələnin həllindən ötəri Ərzurum paşasının hüzuruna getmişdilər. Qarsın sahibsiz qaldığını bilən Təhmasibqulu xan Kələntər Məsumun başçılığı altında Qarsa qoşun göndərmiş, özü isə ordunun qalan hissəsi ilə Kağızmana hücum etmişdi. Təhmasibqulu xan Karin vilayətinə (Ərzrum – B.Ş.) qədərki ərazini qarət edərək çoxlu qənimət və əsirlərlə Qarsa qayıtmış və Kələntər Məsumun ələ keçirdiyi əsirləri Vaqarşapata (Üçkilsəyə - B.Ş.) göndərmişdi. Müəllifin məlumatına görə, Sultan Muradın əmri ilə Karin paşası Şapqarasaqda toplaşan quldur cəlalilərə qarşı yürüşdə olduğu üçün osmanlılar ciddi müqavimət göstərə bilməmişdilər (2, 91-92). Təəssüflər olsun ki, Kənəkirli Zəkəriyyə bu hadisənin tarixini göstərməmişdir. Bu hadisədən sonra Qarsa qayıdan sağ ağası və sol ağası Təhmasibqulu xanın Gürcüstanda Teymuraza qarşı yürüşdə olmasından istifadə edərək Şirak, Niq və Kotayk (Qırxbulaq-B.Ş.) vilayətlərini qarət etsələr də, Təhmasibqulu xanın Gürcüstandan qayıtmasını eşidərək talin vilayətindən keçməklə Qarsa qayıtmışdılar (2, 103).

Gürcüstan səfərindən qayıdan Təhmasibqulu xan osmanlıların bu basqınını cavabsız qoymamış, onları Qars qalasına qədər qovmuşdu (2, 103-105). Bu yürüş zamanı Murad bəyin bir dəstə Osmanlı döyüşçüsü ilə savaşdan qorxub qaçması Təhmasibqulu xanı çox qəzəbləndirmiş və bu hadisədən sonra onlar arasında münasibətlər pozulmağa başlamışdı. İsgəndər bəy Münşi də Səfəvi və Osmanlı arasında baş verən sərhəd toqquşmaları haqqında bəzi məlumatlar vermişdir. Salnaməçinin verdiyi məlumatlara görə, h. 1044-cü ildə (1634) İrəvan bəylərbəyi Maqazberd qalasının hakimi olan oğlunu öz yerinə canişin qoyub İrəvana getmişdi. Bu zaman qalada yaşayan Abdal adlı bir nəfər qala gözətçisinin yatmasından istifadə edərək qala qapılarını Qars rumlularının üzünə açmış və qalaya daxil olan osmanlılar xanın canişinini əsir aparmışdılar (6, 153).

1634-cü ildə Səfəvi dövləti ilə Osmanlı arasında İrəvan uğrunda yenidən hərbi əməliyyatlar başlandı. Kənəkirli Zəkəriyyənin yazdığına görə, 1634-cü

ildə yunan ölkəsindən qayıdan tacirlər xəbər gətirdilər ki, Osmanlı ordusu ya Bağdad, ya İrəvan, ya da Lvov üzərinə yürüşə hazırlaşır. Bu xəbəri dəqiqləşdirmək üçün Təhmasibqulu xan Kənəkir kəndinin kəndxudası Əmircanı Osmanlı ərazisinə kəşfiyyata göndərmək qərarına gəldi (2, 109-110). Təhmasibqulu xandan gizli olaraq onun Osmanlı mənşəli olan müavini Murad bəy Əmircana Osmanlı sultanı, onun vəziri, sərəsgəri və üləmasına ünvanlanmış dörd məktub vermiş və məktubda sultanı İrəvana yürüşə dəvət etmişdi. Murad bəy məktubda İrəvanın öz əlində olduğunu və Osmanlı ordusu yaxınlaşan kimi qalanı onlara təslim edəcəyini bildirmişdi (2, 110). Beləliklə mənbənin məlumatından aydın olur ki, Murad bəy Təhmasibqulu xanla münasibətləri pisləşdikdən sonra səfəvilərə xəyanət edərək, IV Muradı İrəvana yürüşə sövq etmişdi.

Mənbələrdə və tarixi ədəbiyyatlarda IV Muradın İrəvana yürüşü tarixi ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Ə.Rəhmani Molla Kamala istinad edərək yazır ki, IV Muradın qoşunları h. 1044-cü il səfər ayının 13-də (10 avqust 1634) İrəvan qalasını mühasirəyə aldılar və 10 gündən sonra Təhmasibqulu xan Qacar Səfəvilərə xəyanət edərək İrəvan qalasını osmanlılara təslim etdi (4, 84). Dövrün digər mənbələri bu tarixi təsdiq etmirlər. Belə ki, hadisələrin müasiri olan İsgəndər bəy Münşi yazır ki, h. 1044-cü ildə (1634) Çuxur-Səəd bəylərbəyi və İrəvan əmir əl-ümərası Təhmasibqulu xan Qeysərin Üsküdərə istiqamətindən qoşunla hücum etməsi haqqında məlumat aldı (6, 154-155). Salnaməçinin məlumatına əsasən, h.1045-ci ildə (1635) Sultan Muradın top, mancanaq və qoçbaş ilə silahlanmış ordusu İrəvanı mühasirəyə aldı və İrəvan hakimi Təhmasibqulu xan altı gün ciddi müqavimət göstərdi. Sonra isə xan döyüşü davam etdirməyib qala qapılarını Sultan Murada açdı və Sultan iltifat göstərib onu İstanbula göndərdi. Sultan Murad qalaya Murtuza paşanın başçılığı altında 10-15 min mühafizəçi qoyub Təbrizə doğru hərəkət etdi (6, 169-171). Arakel Təbrizlinin məlumatına görə isə, 1635-ci ilin əvvəlində Sultan Murad 700 min qoşunla İrəvan qalasını mühasirəyə aldı və doqquz gündən sonra qalanı ələ keçirib Təhmasibqulu xanı Konstantinopola göndərdi. Sonra isə Sultan Murtuza paşanı 15 minlik qoşunla qalada qoyaraq Təbrizə, oradan isə Vandan keşməklə geriyə qayıtdı (5, 255). Arakel Təbrizli Osmanlı ordusunun sayını şişirtsə də, İsgəndər bəy Münşi kimi Təhmasibqulu xanın müqavimət göstərdiyini və İrəvan qalasının 1635-ci ildə tutulduğunu göstərmişdir. XVII əsrin digər erməni tarixçisi Kənəkirli Zəkəriyyə də İrəvan qalasının 1635-ci ildə doqquz günlük mühasirədən sonra tutulduğunu qeyd edərək yazır ki, Xondkar öz bacısının əri Murtuza paşanı 15 minlik əsgərlə İrəvan qalasında qoyduqdan sonra Təbrizə və oradan da Vandan keçməklə Konstantinopola qayıtmışdı (2, 111). Müəllif İrəvanı tutduqdan sonra Sultan Muradın Təhmasibqulu xanı Yusif paşa, Murad bəyi isə Murad paşa adlandıraraq İstanbula göndərdiyini qeyd etmişdir (2, 111). XVII əsrin Osmanlı salnaməçisi, IV Muradın bir çox səfərlərinin, o cümlədən 1635-ci il İrəvan yürüşünün iştirakçısı Katib Çələbi İrəvan qalasının fəthi haqqında ətraflı məlumatlar vermişdir.

Yürüşü ətraflı təsvir edən salnaməçi yazır ki, yürüşdən öncə 25 balyeməz və tuqi topları göndərildi və 1635-ci il iyulun 29-da qalaya hücum başlandı (7, 144-145). Osmanlı ordusu Zəngi çayının qarşısını kəsib qalaya su verilməsinin qarçısını aldılar və toplarla qala divarlarını dağıtmağa başladılar. Qala divarlarının dağıldığını və Osmanlı ordusunun say üstünlüyünü görən Təhmasibqulu xan müqavimətin mənasız olduğunu başa düşərək avqustun 9-da İrəvan qalasını təslim etdi (7, 146-147). Katib Çələbinin məlumatına görə, Təhmasibqulu xanın Osmanlı xidmətinə keçmək arzusu yerinə yetirildi, ona fəxri xalat, xəncər, qızılı belbağı və çoxlu digər hədiyyələr verildi. Osmanlı xidmətinə keçmək istəməyən qalanın 4-5 min tüfəngçisi Mir Fəttahoğlunun başçılığı altında öz silah-sursatlarını götürüb Ərdəbilə doğru getdilər (7, 142). Osmanlı salnaməçisi Sultan Muradın İrəvan qalasının mühafizəsini 12 min əsgərlə Murtuza paşaya həvalə etdiyini qeyd edərək yazır ki, Təhmasibqulu xanın adını dəyişib Yusif paşa qoyaraq Hələb əyalətini, onun kəndxudası Muradı isə Tarablus əyalətini idarə etməyə göndərdilər (7, 149). Katib Çələbinin məlumatlarından belə aydın olur ki, Təhmasibqulu xan Hələbə gedib çatmamış, Ərzincandan bir mənzil aralıda yerləşən Keşişxana adlı yerdə, öz kəndxudası Murad tərəfindən öldürülmüşdü. Salnaməçiyə görə, sərxoş halda olan Murad Təhmasibqulu xanı İrəvan qalasını təslim etməkdə günahlandıraraq bu addımı atmışdı (7, 149). Kənəkirli Zəkəriyyə Katib Çələbinin Təhmasibqulu xanın sonrakı taleyi haqqında verdiyi bu məlumatları təsdiq etməyərək yazır ki, Təhmasibqulu xan İrəvan qalasının təslim edilməsində Murad bəyi günahlandırmış və onun qardaşı Aslan ağanın əli ilə Muradı öldürmüşdü. Sonra isə Sultan Muradın əmri ilə Təhmasibqulu xan Xalkedon vilayətinin Üsküdərə şəhərinə gələrək ömrünün sonuna qədər orada qalmışdı (2, 112).

Onu da qeyd etmək lazımdır ki, Kənəkirli Zəkəriyyə kitabının XXVI fəslində Təhmasibqulu xanın sonrakı taleyi haqqında bir qədər fərqli məlumat vermişdir. Belə ki, salnaməçinin yazdığına görə, Sultan Muraddan sonra oğlu İbrahim, Şah Səfidən sonra oğlu II Abbas taxta çıxmış və bu zaman Təhmasibqulu xan etimad-üd dövləyə məktubla müraciət edərək əsirlikdən azad edilməsi üçün şahın təşəbbüs göstərməsini xahiş etmişdi (2, 142). II Şah Abbasın xahişi ilə Sultan İbrahim Təhmasibqulu xanı azad etsə də, onun vətənə qayıtmaq arzusu baş tutmamışdı. Belə ki, Təhmasibqulu xanın qayıtması xəbərini eşidən onun əzəli düşməni Təbriz bəylərbəyi Rüstəm xan qayıtdıqdan sonra Təhmasibqulu xanın nüfuzunun artacağından ehtiyatlanaraq Osmanlı sultanına məktub yazmış və bildirmişdi ki, Təhmasibqulu xan Osmanlının bütün sirlərini öyrəndiyindən onun azad olunması İstanbul üçün böyük təhlükə ilə nəticələnə bilər. Bundan ehtiyatlanan Osmanlı sultanının vəziri vətənə dönməkdə olan Təhmasibqulu xanı Nikomediya (İznik) şəhərində qətlə yetirtmişdi (2, 143). II Şah Abbas Təhmasibqulu xanın ölümündə Rüstəm xanın əlinin olduğunu öyrəndikdən sonra onun qətlinə fərman vermişdi. Beləliklə, 10 il Çuxur-Səəd bəylərbəyliyini idarə edən Təhmasibqulu xanın taleyi belə bir acınacaqlı sonluqla başa çatmışdı.

## ƏDƏBİYYAT


1.İsgəndər Münşi. Tarix-i aləm aray-i Abbasi. c. I-II. Çap Qolşən. Tehran: h.1350, s. 606; 607-1235.
2.Закарий Канакерци. Хроника. Перевод с армянского, предисловие и комментарий М.О. Дарбинян-Меликян. М.: Наука, 1969, 320 с.
3.Рахмани А.А. Тарих-и алам арай-и Аббаси как источник по истории Азербайджана. Баку: АН Азерб. ССР, 1960, 192 с.
4.Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981, 239 с.
5.Аракел Даврижеци. Книга историй. Перевод с армянского, предисловие и комментарий Л.А.Ханларян. М.: Наука, 1979, 624 с.
6.İsgəndər bəy Türkman və Məhəmməd Yusif Movərrex. Zeyli tarix-i aləm aray-i Abbasi. Çapxane-ye İslami. Tehran: 1317, 320 s.
7. «Джихан-нюма» и «Фезлике» Кятиба Челеби как источник по истории Армении (XVII в.). Пер. А.А.Папазяна. Ереван: АН Арм. ССР, 1973, 190 с.


## БЕГЛЕРБЕГ ЧУХУР-СААДА ТАХМАСПГУЛУ ХАН ГАДЖАР


**Б.Ш.ШАБИЕВ**


**РЕЗЮМЕ**


В статъе освещено жизнъ и деятелъностъ правителъя Чухур-Саада Тахмаспгулу хан Гаджара. Автор на основе первоисточников анализировал период правления Тахмаспгулу хана и впервые ввел в научный оборот новые исторические факты.



**Ключевые слова:** Иреван, Чухур-Саад, Гаджар.


## THE BEYLERBEY OF CHUKHUR-SA`AD, TAHMASIBQULU KHAN QAJAR


**B.Sh.SHABIYEV**


**SUMMARY**


The paper studies the life and activity of the head of the beylerbeylik of Chukhur-Sa`ad - Tahmasibqulu Khan Qajar. The reign of Thmasibqulu Khan was analysed on the basis of primary resources and new facts, taken from different modern resources were used.



**Key words:** Erivan, Chukur-Sa`ad, Qajar